# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 265** **Bakı şəhəri, 13 sentyabr 2021-ci il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Avtomobil yollarının layihələndirilməsi, tikintisi, yenidən qurulması, təmiri və avtomobil yollarının qəbul edilməsi zamanı müayinənin, yoxlamanın və sınağın keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 7 fevral tarixli 16 nömrəli, "Avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 13 dekabr tarixli 195 nömrəli, "Azərbaycan Respublikasında avtomobil yollarının təsnifat göstəriciləri"nin və "Ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 1 iyul tarixli 91 nömrəli, "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nin təsdiq edilməsi barədə" 2012-ci il 24 dekabr tarixli 318 nömrəli, "Avtomobil yollarının vahid dövlət reyestrinin yaradılması və aparılması, habelə reyestrə daxil edilmiş məlumatların verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 25 aprel tarixli 114 nömrəli və "Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri işlərinin avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyunca yerləşən mövcud mühəndis-kommunikasiya təminatı sistemlərini istismar edən qurumların işləri ilə uzlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 8 fevral tarixli 44 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 fevral tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 115; 2002, № 11, maddə 675; 2003, № 8, maddə 460; 2005, № 1, maddə 49; 2006, № 9, maddə 822; 2008, № 2, maddə 130, № 5, maddə 432; 2015, № 5, maddə 652, № 8, maddə 961; 2016, № 9, maddə 1554; 2017, № 8, maddə 1600; 2018, № 5, maddə 1105, № 10, maddə 2146, № 11, maddə 2440; 2019, № 3, maddə 512, № 6, maddə 1159, № 7, maddə 1341; 2020, № 2, maddə 207) ilə təsdiq edilmiş "Avtomobil yollarının layihələndirilməsi, tikintisi, yenidən qurulması və təmiri Qaydaları"nın "II. Avtomobil yollarının tikintisi və yenidən qurulması" bölməsinin 1.5-ci və "III. Avtomobil yollarının təmiri" bölməsinin 1.4-cü bəndlərində "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş razılıq almış təsərrüfat subyektləri" sözləri "qanunla müəyyən edilmiş hallar istisna olmaqla, müvafiq lisenziyası olan şəxslər" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 13 dekabr tarixli 195 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 805; 2003, № 10, maddə 629; 2005, № 12, maddə 1228; 2007, № 11, maddə 1177) ilə təsdiq edilmiş "Avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı Qaydası"nın 2.12-ci bəndində "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə" sözləri "qeydiyyat orqanına" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 1 iyul tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 582; 2007, № 11, maddə 1177; 2008, № 2, maddə 132; 2009, № 8, maddə 677; 2012, № 11, maddə 1197; 2014, № 5, maddə 549, № 10, maddə 1293; 2015, № 2, maddə 214; 2016, № 6, maddə 1214; 2018, № 1, maddə 139, № 5, maddə 1132) ilə təsdiq edilmiş "Ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması Qaydaları"nın 15-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"15. Yeni avtomobil yolu istifadəyə verildiyi və ya avtomobil yolunun adı dəyişdirildiyi halda, bu Qaydaların 6-cı, 7-ci və 8-ci hissələrində qeyd olunan ad verən orqanlar 3 (üç) gün müddətində ünvan reyestrində müvafiq dəyişikliklərin edilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətini bu barədə məlumatlandırır.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 318 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1382; 2014, № 1, maddə 71, № 2, maddə 201, № 6, maddələr 734, 747; 2016, № 3, maddə 597, № 5, maddə 955, № 9, maddə 1594, № 12, maddə 2241; 2019, № 1, maddə 163, № 3, maddə 565; 2020, № 10, maddə 1304; 2021, № 2, maddə 194) ilə təsdiq edilmiş "Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi"nin "Dövlət orqanının adı" sütununun 35-ci hissəsində "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnolo-giyalar Nazirliyi" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 25 aprel tarixli 114 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 458) ilə təsdiq edilmiş "Avtomobil yollarının vahid dövlət reyestrinin yaradılması və aparılması, habelə reyestrə daxil edilmiş məlumatların verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.3-cü, 2.6-cı, 2.8-ci, 4.10-cu və 5.1-ci bəndlərdə "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi" sözləri "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

5.2. 4.11-ci bənd ləğv edilsin;

5.3. həmin Qaydaya 2 nömrəli əlavə - "Avtomobil yollarının vahid dövlət reyestrindən Çıxarış"ın formasından "(struktur bölmənin tam adı)" sözləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 297; 2018, № 5, maddə 1110; 2020, № 2, maddə 187) ilə təsdiq edilmiş "Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri işlərinin avtomobil yollarının bilavasitə altında və ya yolların kənarı boyunca yerləşən mövcud mühəndis-kommunikasiya təminatı sistemlərini istismar edən qurumların işləri ilə uzlaşdırılması Qaydası"nın 1.3-cü (ikinci halda) və 1.4-cü bəndlərində "yollarının" sözündən sonra "mülkiyyətçilərinin (sahiblərinin)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***